# 12 Dekabr aksiyası – "yumşaq güc" üçün altı amil

## *Yaxud Topxanadan başlanmış erməni ekosidinə cəza zərurəti*

***Birinci amil.*** **Aksiya dekabrın 12-də start götürdü. Artıq "start götürdü" deyə bilərik. Çünki davam edir və edəcək də. Söhbət azərbaycanlı fəalların – ictimaiyyət nümayəndələrinin, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri təmsilçilərinin Şuşa ətrafında Laçın–Xankəndi yolundakı aksiyasından gedir. Bu aksiya ulu öndər Heydər Əliyevin bizdən cismən ayrıldığı günün ildönümündə başladı.**

2003-cü il dekabrın 12-də xalq Fəxri xiyabana yalnız öz böyük oğlunu son mənzilə yola salmaq üçün axışmış insan izdihamı, həm də, birlik və bütövlüyün nümayişi olmuşdu. 2022-ci ilin 12 dekabrında da xalq birlik və həmrəylik göstərdi. Burada bir qanunauyğunluq var.

Tələbinin necə səslənməsindən asılı olmayaraq, 12 Dekabr aksiyası xalqın Qarabağ həssaslığının yeni direniş mərhələsinə qədəm qoyduğunun təsdiqidir. O direnişin və əzmin memarı isə ulu öndər Heydər Əliyevdir. Elə haqqında söz açdığımız qanunauyğunluq da məhz bundan qaynaqlanır. Bu, ilahi qanunauyğunluqdur.

**(ardı 10-cu səhifədə)**

# 12 Dekabr aksiyası – “yumşaq güc” üçün altı amil

(əvvəli 1-ci səhifədə)

**İkinci amil.** Ötən əsrin 80-ci illərinin sonlarını xatırlayaq. Konkret olaraq, 1988-ci il noyabrın 15-ni. Bu təqvim günü Ermənistanın Azərbaycana qarşı, sonradan işğala çevrilmiş, ekoloji təcavüzünün başlandığı tarixdir. Həmin gün ermənilər Şuşada Topxana meşəsini yandırmışdılar. Bu, Azərbaycan ərazisində ekoloji soyqırımı – ekosid idi.

Topxana yandırılmış, nadir ağaclar buldozerlərlə məhv edilmişdir. Nə üçün? Ona görə ki, 1988-ci ilin noyabrında Ermənisan SSR-in Alüminium zavodlarından birinin filialını Əsgəran rayonunun ərazisindəki Topxana meşəsində tikməyə başlamışdılar. Nəyə görə məhz Topxana meşəsində? Çünki bu yer xalqımızın incisi, mənəviyyat və varlıq dünyası Şuşanın özünümüdafiə simvoludur. Yada salaq ki, 1795-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşanı mühasirəyə aldığı zaman toplarını məhz həmin məkanda yerləşdirmişdi. Bunu Azərbaycanla yanaşı, erməni mənbələri də təsdiqləyir.

Erməni millətçiləri də mövcud məqamı nəzərə almışdılar. Bilirdilər ki, Topxana yalnız bir meşə, yaxud təbiət qoruğu deyil, eyni zamanda, xalqımızın milli irsi, özünümüdafiə simvoludur, qürur mənbəyidir. Ona görə təcavüzün ünvanı olaraq, məhz oranı seçmişdilər.

Topxana meşəsinin qırılmasına qarşı Şuşadan başlanmış özünümüdafiə hərəkatı paytaxt Bakıda da vüsət aldı. Bu hərakat keçmiş Sovetlər İttifaqını silkələdi. 1988-ci il noyabrın 17-də o zamankı Lenin, indiki Azadlıq meydanında Topxana meşəsinin qırılmasına etiraz mitinqi başlandı. Etiraza çıxmış xalqın üç tələbi var idi: 1.Topxana meşəsinin qırılması dayandırılsın! 2. Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində respublika hakimiyyətinin səlahiyyətləri bərpa edilsin! 3. SSRİ Ali Sovetinin növbəti sessiyasında Qarabağ məsələsinin müzakirəsi keçirilsin və bu baş verməsə, parlamentdəki azərbaycanlı deputatlar geri qayıtsın!

Erməni millətçiləri isə buna cavab olaraq, Qarabağda etnik təmizləmə cinayətlərinə start verdilər. Bölgə sakinlərinin doğma yurd-yuvalarından qovulması halları getdikcə kütləviləşdi. O dövrdə terrorçu ermənilər yollarda pusqular qurub azərbaycanlıların nəqliyyat vasitələrinə hücum edirdilər. Onların silahlı dəstələri Qarabağ meşələrində lövbər salmış, iqamətgahlar qurmuşdular.

Baxın, Ermənistan rəhbərliyi və erməni siyasi dairələri hazırda Laçın yolunda yaranmış durumu Qarabağ ermənilərinə qarşı etnik təmizləmə və soyqırımı siyasəti kimi dəyərləndirirlər. Ona görə ki, bu, onların vaxtilə etdikləridir. Yırtıcı təfəkkürləri ilə düşünürlər. Bu gün də o təfəkkür sahibləri Qarabağda ekoloji terroru gerçəkləşdirirlər. Elə bir terror ki, həm də talan mahiyyəti daşıyır.

Nəzərə alaq ki, yalnız 2009–2017-ci illərdə Qızılbulaq yatağının amansız istismarı nəticəsində 178 milyon dollar vəsait əldə edilib. O vəsait ki, nəinki Qarabağdakı separatçı rejimi təmin edib, eyni zamanda, Ermənistan hakimiyyətinin çirkli pul kisəsini zənginləşdirib. Hələ bu, rəsmi açıqlanmış rəqəmdir. Eləcə də Dəmirli yatağı. Təsəvvür edin ki, bu yataq Azərbaycan ərazisindəki ən böyük mis yataqlarından biridir.

Ümumən, 44 günlük müharibəyədək Qızılbulaq və Dəmirli yataqlarını istismar edən “Base Metals” şirkəti təkcə 2019-cu ildə Qarabağdakı qondarma rejimə 38,5 milyon dollar vergi ödəmişdi. Rejimin ixracının 60, ümumi gəlirlərinin isə 32 faizi məhz bu şirkət tərəfindən təmin olunurdu.

Göründüyü kimi, ekoloji terror, həm də, siyasi mahiyyət daşımaqdadır. Buna görə də, Azərbaycan ekoloqları və dövlət qurumlarının mütəxəssisləri əraziyə daxil olmaq istəyəndə onların qarşısı kəsilib. Guya, yerli əhali buna etiraz edib. Etirazın səbəbi məlumdur – sözügedən yataqlardan gələn pullarla varlıqlarını sürdürmək və 1988-ci ildə etdiklərini təkrarlamaq naminə güclənmək. Məsələnin ölkəmiz üçün prinsipial əhəmiyyəti məhz budur. İndi görsünlər ki, etiraz necə olur! Hələ daha betəri olacaq!



***

**Üçüncü amil.** 12 dekabr 2022-ci il tarixindən start götürmüş və hələ də davam etməkdə olan aksiyanın daha bir əhəmiyyəti onunla izah edilir ki, bu aksiya, əslində, Topxana meşəsindən başlanmış erməni ekosidini dünyaya çatdırmaq fürsətidir. Yuxarıda bu ekosidin siyasi tərəflərini və hədəflərini izah etdik. Yəni, dolayısı ilə bildirdik ki, ötən əsrin 80-ci illərində baş verənlər bu gün də aktualdır. Acı tarixin təkrarlanmaması üçün aksiyanı genişləndirmək mütləqdir.

Dünya, beynəlxalq hüquq bu cinayətlə – erməni ekoloji terroru ilə bağlı sözünü deməlidir. Nəzərə alaq ki, ermənilər torpaqlarımızın 20 faizini işğalda saxlamaqla, bir milyondan çox soydaşımızı doğma yurd-yuvasından didərgin salmaqla yanaşı, həm də, qanunsuz nəzarət etdikləri Azərbaycan ərazilərində ekosid cinayətləri də törədiblər, əraziləri, xüsusilə, meşələri yandırıb, ən qiymətli və nadir ağacları məhv ediblər.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətə başladığı ilk gündən Qarabağ müstəvisində həyata keçirdiyi siyasətin başlıca istiqamətlərindən biri də Ermənistanın ekoloji cinayətlərini diqqətə çatdırmaq olub. Müxtəlif beynəlxalq təşkilatların toplantılarında iştirak edən ölkəmizin nümayəndə heyətinin üzvləri Ermənistanın işğalı nəticəsində meşələrə ciddi zərər vurulması faktını qabardıblar.

Nəzərə alaq ki, işğal altındakı ərazilərimizin böyük hissəsini məhz meşələr təşkil edib ki, onların əksəriyyəti məhv edilib. Ağaclarla yanaşı, “Qırmızı kitab”a düşmüş, kökü kəsilməkdə olan nadir növlər sıradan çıxarılıb. Təsəvvür edin ki, Kəlbəcərdəki “Ayı fındığı meşələri”nin, Qubadlı və Laçındakı qırmızı palıdların yeri hazırda boş ərazidir.

Ermənilər ağacları mebel sənayesi üçün xammal kimi istifadə ediblər. Bu, azmış kimi hələ meşələrin yerində Metsamor Atom Elektrik Stansiyasından gətirilmə nüvə tullantıları, zəhərli maddələr basdırıblar. Bu, sözün əsl mənasında, ekosiddir, soyqırımıdır. Bu baxımdan da azərbaycanlı fəalların keçirdikləri aksiya son dərəcə vacibdir. 12 dekabrdan başlanmış etiraz, ümumən, təcavüzkar Ermənistanın illərdən bəri apardığı – ekosid siyasətinin dünyaya çatdırılması üçün əlverişli platformadır. Bu platformanı daha da gücləndirmək şərtdir.

***

**Dördüncü amil.** Dekabrın 12-dən başlanmış aksiya hər bir halda siyasi xarakter daşımaqdadır. O anlamda ki, bu gün Azərbaycan torpaqlarında aparılan ekosid siyasətinin ilhamvericisi, hamisi qismində çıxış edən bölgədəki erməni separatizmidir. Yuxarıda bu separatizmin yaxın tariximizin müxtəlif dövrlərində gerçəkləşdirdiyi əməllərdən bəhs etdik. Ancaq ən yaxın tariximiz də var. Söhbət 44 günlük müharibənin yekunlarını bəlirləyən Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatından gedir. O bəyanatdan ki, onun şərtləri sırasında Ermənistana məxsus hərbi birləşmələrin Qarabağdan çıxarılması da yer alırdı. Ancaq İrəvan bunu etmir. Bu isə o deməkdir ki, bölgədə həyata keçirdiyi ekoloji soyqırımı üçün, bir növ, sipər saxlayır. Elə Qarabağdakı qondarma rejim də, onun araikləri də, vardanyanları da, balasanyanları da həmin siyasətin sipərləridir. Bu adamları, Qarabağda yaşayan dinc ermənilərin taleləri, qətiyyən, narahat etmir. Onlar əhaliyə yalnız öz məqsədlərini gerçəkləşdirmək vasitəsi kimi baxırlar. Bunu dünya da bilməli, elə həmin əhali də dərindən dərk etməlidir.

Ermənilərin dəhliz kimi qiymətləndirdikləri Laçın yolunun bağlanması Qarabağ erməniləri üçün problem yaradır. Yaratmalıdır da. Diqqət yetirək, hazırda Ermənistan hakimiyyəti, var gücü ilə, Qarabağ ermənilərinin məzlum, əzilmiş obrazını yaratmaqla məşğuldur. Guya, hüquqları pozulur və s. Halbuki, öz millətindən olanların hüquqlarını düşünmək bu cür olmur. Ermənistanın siyasi rəhbərliyi, həqiqətən, insan amilini düşünsəydi, yaşadıqları bölgənin hüquqi sahibi olan ölkədəki, yəni Azərbaycandakı yaşayış səviyyəsinə diqqət yetirər, müqayisə aparıb düzgün nəticəyə gələrdi. Bunu etməyi nə İrəvandakılar, nə də dünya erməniliyi düşünür. Çünki mənəviyyatları çürükdür.

Bəli, Qarabağ erməniləri də çürük, üfunət qoxulu mahiyyətin, qədim və orta əsrlər dövrünə xas zehniyyət sahiblərinin, xəstə təfəkkürün qurbanlarıdır. Onlar vardanyanların, araiklərin aksiyalarına yox, azərbaycanlıların təşəbbüslərinə dəstək verməlidirlər. Qarabağdakı xunta rejimini özləri məhv etməlidirlər. Bu gün bu tələb bölgə ermənilərinin öz ev-eşiklərini qorumaq tələbi kimi meydana çıxan zərurətdir. Seçim etməlidirlər: Ya Azərbaycanın hakimiyyəti altına sığınıb normal yaşamaq, ya da separatçılarla birlikdə bölgəni tərk etmək. Laçın yolu bunun üçün taybatay açıqdır.

***

**Beşinci amil.** Azərbaycan hakimiyyəti də kifayət qədər açıqdır. Rəsmi Bakı bildirir ki, Qarabağ ermənilərinin tələbatlarını qarşılamağa hazırdır. Ölkəmiz bunu hər zaman bəyan edib. İndiki qeyri-müəyyən, onlar üçün heç bir perspektiv vəd etməyən vəziyyətdənsə, Azərbaycan hakimiyyətinə sığınmaq ən doğru addımdır. Bunu soyuq başla düşünməli vacibdir. Həm də onu düşünməlidirlər ki, iqtisadi kataklizmlər girdabında boğulan Ermənistan onlara yardım etmək imkanlarından məhrumdur. 44 günlük müharibə dönəmində ölkəyə pənah aparmış ermənilər ac-yalavac, evsiz-eşiksiz halda İrəvan küçələrində dolaşmaqda, bir qarın çörəyə möhtac durumda yaşamaqdadırlar. Bu aqibət hazırda Azərbaycan ərazilərində yaşayan erməniləri də gözləyə bilər. Ən azından indi yaşadıqları kimi başqa yerdə ömür sürmələri mümkün deyil. Nə qədər ki, gec deyil, doğru qərar verməlidirlər. Özlərini xəstə təxəyyül girovluğundan qurtarıb Azərbaycan vasitəsilə dünyaya açılmağı düşünməlidirlər.

Onu da düşünməlidirlər ki, azərbaycanlılar tarix boyu ermənilərə qarşı pis olmayıblar. Heç vaxt səmimiyyətə xələl gətirməyiblər. İndi gedən vaxt, əslində, həmin səmimiyyəti, münasibətləri bərpa etmək üçün itirilmiş vaxtdır. Bunu Ermənistanın avantürist hakimiyyəti nəzərə almaya bilər, amma, Qarabağ ermənilərinin bu barədə fikirləşməsi günün tələbidir. Laçın yolu bağlı ola bilər, amma qeyd etdiyimiz yollar açıqdır. Həlelik açıqdır.

***

**Altıncı amil.** 12 Dekabr aksiyası 27 sentyabrda başlanmış yolun davamıdır. 44 günlük müharibə dönəmində Azərbaycan xalqı nə qədər böyük əzm və iradə, dözüm və mətanət göstərdisə, eynisini indi də göstərməkdədir. Buna heç kəsin şübhəsi olmamalıdır. Nə Ermənistanın, nə də onun xaricdəki havadarlarının.

Onlar qəti şəkildə anlamalıdırlar ki, müharibə davam edir. Ötən müddətdə əldə edilmiş razılığa əməl etməsə də, hərbi təxribatlar törətsə də, Ermənistanın 10 noyabr 2020-ci ildə atəş səslərini kəsmək məcburiyyətində qaldığı reallıqdır. Ancaq bu reallıqdan lazımınca dərs çıxarmayıblar. Torpaqlarımızda ekoloji terror həyata keçiriblər ki, bunun da cavabı mütləq olmalıdır. Bu gün Laçın yolunun bağlanması həm cavabdır, həm də Ermənistanın ötən iki ildə, loru dildə desək, özünü düzgün aparmamasının nəticəsidir.

Bu aksiya, eyni zamanda, Ermənistanın sülh prosesindən yayınaraq yeni reallıqlar formalaşdırmaq istiqamətindəki cəhdlərinə cavabdır. Rəsmi İrəvan bölgəyə müxtəlif missiyalar gətirmək istəyirdi. Dünən o missiyalardan biri – Avropa İttifaqının missiyası fəaliyyət müddətini uzatmayacağını açıqladı. Belə də olmalıydı. İrəvandakılar Azərbaycan Prezidenti cənab İlham Əliyevin sözlərini düşünməli idilər.

Dövlətimizin başçısı əminliklə bildirmişdi ki, heç kəs Ermənistana kömək etməyəcək, heç kəsə arxayın olmasınlar. Cənab İlham Əliyevin dedikləri bu dəfə də özünü doğrultdu. Qərbdən gələn o biri missiyalar da yoxa çıxacaqlar. Çünki onlar Azərbaycanın dirənişini görürlər. Bu dirənişdə manipulyasiya üçün meydanın olmadığını anlayıb aradan çıxırlar.

Okeanın o tayından hazır bəyanatlar gəlir. Çünki ölkəmizin haqlı olduğunu anlayırlar. Ümumən, hər kəs, haqqın, həm də, gücə əsaslandığını bilir. Bəli, 12 Dekabr aksiyası, əslində, Azərbaycanın ortaya qoyduğu yumşaq gücdür. Bu gün aksiyaya dəstək üçün insan seli var. Ora gedən hər kəs özünü, həm də, 44 günlük müharibənin əsgəri, zabiti kimi görür.

Bununla yanaşı, 12 dekabrdan başlanmış aksiya haqlı məqsədlərə çatmaq üçün dinc vasitələrdən istifadənin son dərəcə səlis düşünülmüş örnəyidir. Qayəsində Vətən sevgisi dayanan örnək. Ermənistan bundan da nəticə çıxarmalıdır.

**Ə.CAHANGİROĞLU,**
**“Xalq qəzeti”**